Vətəndaşların Əmək Hüquqlarını
Müdafiə Liqası

Açıq Jəmiyyət İnstitutu-Yardım Fondu
İnsan Hüquqları və İdarəetmə
Üzrə Qrant Proqramı (Budapeşt)

SƏRBƏST TOPLAŞMA AZADLIĞI

√ ***Toplanmı məşkilamçıları***

√ ***Toplanmı işmirakçıları***

√ ***Toplanmını müşahidə edənlər***

Üçün vəsaim

BAKI-2007

Sahib Məmmədov

Bu vəsaiт Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən Açıq Jəmiyyət İnsтituтu İnsan Hüquqları və İdarəetmə Qranт Proqramının (Budapeşт) maliyyələşdirdiyi «***Azərbayjan Respublikasında sərbəsm moplaşma azadlığının məmin olunmasının vəziyyəminin monimorinqi***» adlı layihə çərçivəsində hazırlanaraq nəşr olunmuşdur.
Vəmәndaşların Əmək Hüquqlarını Müdafiə Liqası
Ünvan: Bakı AZ1014, Rəsul Rza 87\9
Tel: (994 12) 495 85 54; (994 50) 314 49 15
E-mail: clrpl@bakinter.net; smamedov@rambler.ru
www.clrpl.org

© VƏHML
© AJİ-YF

MÜNDƏRİJAT

GİRİŞ

KÜTLƏVİ TƏDBİRİN TƏŞKİLİ

TOPLANTILARIN MÜŞAHİDƏSİ

MÜVAFİQ QANUNVERİJİLİK AKTLARINDAN ÇIXARIŞLAR

AVROPA MƏHKƏMƏSİNİN QƏRARLARINDAN ÇIXARIŞLAR

SƏNƏD NÜMUNƏLƏRİ

GİRİŞ

Dinj toplaşma azadlığı hüququ əsas beynəlxalq səndlərdə əks olunmaqla insan hüquqları və azadlıqları içərisində mühüm əhəmiyyət kəsb edir.
Azərbayjan Respublikası 1992-ji ildə Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakta qoşulmaqla ölkədə hər kəsin dinj toplaşma azadlığı hüququna dair beynəlxalq öhdəlik götürmüşdür.
Azərbayjan Respublikası Konstitusiyasının 49-ju maddəsi hər kəsin başqaları ilə birgə toplaşma azadlığı hüququnu özündə təsbit edir. Konstitusiyanın maddəsinə görə dinj yığınjaqların, mitinqlərin, nümayişlərin və s. kütləvi tədbirlərin keçirilməsi üçün hakimiyyət orqanlarından ijazə tələb olunmur. Konstitusiyaya görə təşkilatçılar müvafiq hakimiyyət orqanını qanunverijilikdə nəzərdə tutulmuş müddət ərzində xəbərdar etməlidirlər.
Konstitusiyanın qəbul olunmasından bir neçə il sonra 1998-ji il tarixində ***«Sərbəsm moplaşma azadlığı haqqında Azərbayjan Respublikası Qanunu»*** da qəbul olunmuşdur.
Nəhayət Azərbayjan Respublikası İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasını ratifikasiya etməklə öz üzərinə ölkədə dinj toplaşma azadlığı hüququnun təmin olunması üçün daha jiddi mexanizmlərə malik olan öhdəlik götürmüşdür.
Zəruri hüquqi bazanın mövjudluğu fonunda ölkədə insanların sərbəst surətdə toplaşaraq iradələrini ifadə etmək hüququ ən jiddi şəkildə pozulan hüquqlardandır. Beynəlxalq qurumlar və ölkə ijtimaiyyəti Azərbayjanda bu mühüm və fundamental azadlığın təmin olunması istiqamətində səylərini artırmaqdadırlar.
Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən sərbəst toplaşma azadlığının təmin olunma vəziyyəti ilə bağlı həyata keçirdiyi monitorinq nəticəsində hazırlanan tövsiyyələr içərisində maarifləndirmə fəaliyyətlərinin həyata keçirilməsi ilə bağlı tövsiyyələr də yer almışdır. Bu tövsiyyələrdən biri də aşağıdakı olmuşdur.
«Toplanmı məşkilamçıları, o jümlədən siyasi parmiya və ijmimai məşkilamların nümayəndələri üçün moplanmı azadlığı, onun həyama keçirilməsi, şikayəm prosedurları və s. məsələlərlə bağlı maarifləndirilməlidirlər. Maarifləndiriji mədbirlər mreninqlər və xüsusi ədəbiyyamın hazırlanması və yayılması yolu ilə həyama keçirilməlidir».
Təqdim olunan bu vəsait həyata keçirilmiş monitorinqin nəticələri ilə bağlı hazırlanmış bu tövsiyyənin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlərdəndir.

KÜTLƏVİ TƏDBİRİN TƏŞKİLİ

Sərbəsm moplaşma azadlığı haqqında Azərbayjan Respublikası Qanunu toplantıların aşağıdakı formalarını nəzərdə tutur:

«Yığınjaq» - şəxslərin hər hansı məsələni birlikdə müzakirə etmək və həmin məsələyə dair qərar qəbul etmək məqsədi ilə toplaşmasıdır.

«Mitinq»- Toplaşmış şəxslərin ümumi fikirlərini ifadə etmək və (və ya) ümumi çağırışlar etmək, tələblər irəli sürmək üçün keçirilən kütləvi aksiyadır.

«Nümayiş»- bir qrup şəxsin ijtimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir.

«Küçə yürüşü» - müəyyən marşurutla hərəkət edən bir qrup şəxsin ijtimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir.

«Pikem» - ijtimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərini ifadə edən şəxslərin nümayişdə iştirak edənlərdən daha kiçik bir qrupun müəyyən yerdə toplaşmasıdır.

Qeyd olunmalıdır ki, istər digər ölkələrin, istərsə də bizim ölkənin praktikasında yuxarıda sadalanan toplantı formalarından başqa toplantı formaları da mövjuddur. Lakin ölkə qanunverijiliyi yalnız onlardan ən geniş yayılmış formaların anlayışını verir.

Xəbərdarlıq proseduru

Azərbayjan Respublikası Konstitusiyasının 49-ju maddəsinə uyğun olaraq ***Sərbəsm moplaşma azadlığı haqqında Azərbayjan Respublikası Qanunu*** toplantı keçirmək üçün ijazə deyil, müvafiq ijra hakimiyyəti orqanının xəbərdar etmək prosedurunu nəzərdə tutur.

Sərbəst toplaşma azadlığı haqqında qanunun 5-ji maddəsinə əsasən bu xəbərdarlıq nəzərdə tutulmuş toplantının keçirilməsindən ən azı 5 gün əvvəl təqdim edilməlidir. Yazılı xəbərdarlığa aşağıdakı məlumatlar daxil edilməlidir:

- toplantının adı;
- məqsədi;
- keçirilmə yeri və vaxtı;
- iştirakçıların təxmini sayı;
- küçə yürüşü keçirilirsə, onun təklif edilən marşurutu (yürüşün başlanma yeri, məsafəsi və bitəjəyi yer);

- toplantı təşkilatçılarının tam adı və ünvanı;
- yazılı xəbərdarlığın təqdim edildiyi tarix;
- əlaqə telefonları və ya onlar olmadıqda əlaqə ünvanı barədə məlumatlar daxil edilməlidir. Təşkilatçıların hamısı yazılı xəbərdarlığı imzalamalıdır.

Qanun 5-ji maddəsində təsadüfi toplantılar üçün xəbərdarlığın edilməsi nəzərdə tutulmur. Bununla belə təsadüfü toplantılar qanunda nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla və dayandırıla bilər. Eyni zamanda spontan toplantıların keçirilməsi ilə bağlı qanunda hər hansı müddəa yoxdur.

Kimlər moplanmının məşkilamçısı ola bilər?

Sərbəst toplaşma azadlığı haqqında Azərbayjan Respublikası Qanununun 6-jı maddəsinə görə aşağıdakılar toplantı təşkilatçısı ola bilərlər:

- Yaşı 18-ə çatmış və fəaliyyət qabiliyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdudlaşdırılmamış şəxs və ya şəxslər qrupu;
- Siyasi Partiyalar;
- İjtimai birliklər;
- Həmkarlar ittifaqları;
- Təşəbbüs qrupları.

Toplantı keçirmək istəyən siyasi partiya, ijtimai birlik, həmkarlar ittifaqı təşkilatı və ya təşəbbüs qrupu həmin tədbirin təşkilatçısını təyin etməlidir.

Qanuna görə toplantı təşkilatçıları və ya onların nümayəndələri toplantıda şəxsən iştirak etməlidirlər. Bu mümkün olmadıqda təşkilatçılar və ya onların nümayəndələri toplantıya gələ bilməyəjəkləri barədə müvafiq ijra hakimiyyəti orqanına tədbirin başlanmasına azı 3 saat qalmış məlumat verməli, eyni zamanda toplantı iştirakçılarını xəbərdar etməlidirlər. Bu halda toplantı keçirilə bilməz.

Kimlər moplanmını məşkilamçısı ola bilməz?

- Yaşı 18-ə çatmayanlar;
- Fəaliyyət qabiliyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdudlaşdırılanlar;
- Əgər toplantı siyasi məqsəd daşıyırsa əjnəbilər və vətəndaşlığı olmayanlar;

Toplanmı harada keçirilə bilər?

Sərbəst toplaşma azadlığı haqqında Azərbayjan Respublikası Qanununun 9-ju maddəsinin VI bəndinə görə «Yığınjaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər bir şəhər və rayonda müvafiq ijra hakimiyyəti orqanı xüsusi yer ayırmalıdır. Yığınjaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün ayrılmış yerlərin siyahısı yerli mətbuatda dərj edilir və başqa üsullarla əhaliyə çatdırılır. Təşkilatçılar yığınjaq, mitinq və nümayiş üçün ayrılmış yerlərin birini seçə bilər»

Toplanmının keçirilməsi üçün yerlərə qoyulan məhdudiyyəmlər və qadağalar

Sərbəst toplaşma azadlığı haqqında Qanunun 9-ju maddəsi toplantıların keçirilmə yerinə məhdudiyyət və qadağaları müəyyən edir. Bunlar aşağıdakılardır:

- Əgər toplantı təşkilatçılarının yazılı xəbərdarlığında göstərilmiş yerdə və vaxtda başqa bir tədbirin keçirilməsi təyin edilibsə, müvafiq icra hakimiyyəti orqanı təşkilatçılara başqa vaxtın və yerin müəyyən edilməsi üçün imkan verməlidir. Dəyişdirilmiş vaxt və yer haqqında yazılı xəbərdarlıq tədbirin yeni tarixinə azı 3 gün qalmış müvafiq icra hakimiyyəti orqanına təqdim edilməlidir.
- Aşağıdakı yerlərdə yığınjaqların, mitinqlərin, nümayişlərin keçirilməsi qadağandır:

- Azərbayjan Respublikasının qanunverijilik, icra və məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların ətrafında 300 metr radius çərçivəsində;
- dəmir yolu, neft və qaz boru kəmərlərinin, yüksək gərginlikli elektrik xətlərinin keçdiyi ərazilərdə;
- xüsusi dövlət tədbirlərinin keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrılmış yerlərdə;
- hərbi məqsədlər üçün istifadə olunan ərazilərdə və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə;
- azadlıqdan məhrum etmə yerlərinin, psixatriya müalijə müəssisələrinin ərazilərində və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə.

- Siyasi məzmunlu toplantılar ziyarətgahlarda, ibadətgahlarda və qəbirstanlarda keçirilə bilməz.
- Pikет düzəldənlər 50 nəfərdən çox olmamalı və pikет edilən obyektin girişinə 10 metrdən yaxın məsafədə yerləşməməli, pikет edilən obyektə giriş və çıxış üçün maneələr yaratmamalı və 10 vattdan yüksək olan səs güjləndiriji qurğulardan istifadə etməməlidirlər.
- Küçə yürüşünün təşkilatçıları onun marşurutunu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmalıdırlar.

Toplanmının keçirilməsi üçün vaxm məhdudiyyəmləri

Qanuna əsasən toplantı aşağıda göstərilən vaxt çərçivəsində keçirilə bilər.

- Toplantı yay vaxtının tətbiqi dövründə saat 8-00-dan 19-00-dək, ilin digər dövründə isə saat 9-00-dan 17-00-dək keçirilə bilər. Keçirilən hər bir toplantının vaxtı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır.

Toplanmının məşkili üçün nəzərdə mumulan mədbirlər

- Toplantının məqsədlərinin və formasının müəyyən olunması;
- Müvafiq icra hakimiyyətinə xəbərdarlıq məktubunun təqdim edilməsi;
- Toplantıqabağı təbliğatın təşkili;

- Əyani vəsaitlərin, şüarların, plakatların hazırlanması;
- Texniki vasitələrin hazırlanması;
- Qanunverijilikl qadağan olunmayan digər təşkilati işlərin həyata keçirilməsi.

Şikayəm proseduru

Sərbəst toplaşma azadlığı haqqında qanunun 11-ji maddəsinə görə «Qanunun 7-9-ju maddələrində nəzərdə tutulmuş bütün qərarlardan məhkəməyə şikayət verilə bilər. Məhkəmənin bu jür şikayətlərə dair qərardadından yuxarı məhkəməyə şikayət verilə bilər»
Qanunun 7-8 və 9-ju maddələri toplantıların keçirilməsi ilə bağlı məhdudiyyət, qadağa və onların hansı hallarda tətbiq olunması qaydalarını müəyyən edir. Bunlar aşağıdakılardır:

Maddə 7. Sərbəsm moplaşma azadlığına qoyulan qanuni məhdudiyyəmlər

I. Sərbəst toplaşma azadlığına hər hansı məhdudiyyət yalnız qanunla və demokratik jəmiyyətdə zəruri olan aşağıdakı mənafelərin qorunması məqsədi ilə qoyula bilər:
1) ijtimai və dövlət təhlükəsizliyi mənafelərinin qorunması üçün;
2) ijtimai asayişin pozulmasının qarşısını almaq üçün;
3) iğtişaş və ya jinayətlərin baş verməməsi üçün;
4) əhalinin sağlamlığının mühafizəsi üçün;
5) əxlaq normalarının və mənəviyyatın mühafizəsi üçün;
6) başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün;
II. Bu maddənin I hissəsində nəzərdə tutulmuş sərbəst toplaşma azadlığı müxtəlif formalarda, o jümlədən, toplantı vaxtının və yerinin dəyişdirlməsi formasında məhdudlaşdırıla bilər.
III. Bu maddənin I hissəsində nəzərdə tutulmuş sərbəst toplaşma azadlığının məhdudlaşdırılması qarşıya qoyulan məqsədə mütanasib olmalıdır. Həmin məhdudiyyət qarşıya qoyulmuş məqsədə nail olmaq üçün lazımi və kifayət hədləri aşmamalıdır.
IV. Bu maddənin bir hissəsində nəzərdə tutulmuş sərbəst toplaşma azadlığının məhdudlaşdırılması üçün görülən tədbirlər məhdudiyyətin qoyulmasına səbəb olmuş məqsədə nail olmaq üçün son dərəjə zəruri olmalıdır.

Maddə 8. Toplanmının qadağan edilməsi və ya dayandırılması

I. Ayrı seçkiliyə, ədalətə və ya zorakılığa çağırışlarla müşaiyət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən toplantılar qadağan edilir.
II. Müharibəni təbliğ edən toplantılar qadağan edilir.
III. Siyasi məqsədlə dinj toplantı keçirmək aşağıdakı hallarda qadağan edilir:
1) Azərbayjan Respublikası Prezidentinin seçkiləri (ölkə ərazisində), Azərbayjan Respublikası Milli Məjlisi deputatlarının seçkiləri (ölkə ərazisində), Naxçıvan MR Ali Məjlisin deputatlarının seçkiləri (Naxçıvan MR ərazisində), bələdiyyə seçkiləri (müvafiq şəhər və rayonun ərazisində), gününə 24 saat qalmışdan seçki günü səs vermə məntəqələri bağlananadək;
2) Referdumun keçirildiyi günə 24 saat qalmışdan səsvermə məntəqələri bağlananadək;
3) Müvafiq ijra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirlərə hazırlıq dövründə və onların keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonların ərazilərində;

IV. Toplantı demokratik jəmiyyətdə zəruri olan hallarda və bu Qanunun 7-ji maddəsinin I hissəsində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə qadağan edilə bilər;
V. Zəruri hallarda toplantı bu Qanunun 7-ji maddəsinin I hissəsində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə dayandırıla bilər;
VI. Bu maddənin IV və V hissələrinə uyğun olaraq toplantının qadağan edilməsi və ya dayandırılması son zərurət tədbiri sayılır və yalnız bu qanunun 7-ji maddəsində müəyyən edilmiş məhdudiyyətlər kifayət etmədikdə tətbiq edilir.
VII. Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə yığınjaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşləri və pikетlərin keçirilməsinə qanunverijilikлə müəyyən edilmiş qaydada məhdudiyyət qoyula bilər və ya onların keçirilməsi qadağan edilə bilər;

Maddə 9. Dinj moplanmının keçiriləjəyi yerin və vaxmın məhdudlaşdırılması və ya qadağan edilməsi

I. Dinj toplantının keçiriləjəyi yerə məhdudiyyətlər bu Qanunun 7-ji maddəsində müəyyən edilmiş meyarlara uyğun olaraq qoyulur.
II. Əgər toplantı təşkilatçılarının yazılı xəbərdarlığında göstərilmiş yerdə və vaxtda başqa bir tədbirin keçirilməsi təyin edilibsə, müvafiq icra hakimiyyəti orqanı təşkilatçılara başqa vaxtın və yerin müəyyən edilməsi üçün imkan verməlidir. Dəyişdirilmiş vaxt və yer haqqında yazılı xəbərdarlıq tədbirin yeni tarixinə azı 3 gün qalmış müvafiq icra hakimiyyəti orqanına təqdim edilməlidir.
III. Aşağıdakı yerlərdə yığınjaqların, mitinqlərin, nümayişlərin keçirilməsi qadağandır;
1) Azərbayjan Respublikasının Qanunverijilik, İjra və Məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların ətrafında 300 metr radius çərçivəsində;
2) Dəmir yolu, Neft və Qaz boru kəmərlərinin, yüksək gərginlikli elektrik xəttlərinin keçdiyi ərazilərdə;
3) Xüsusi dövlət tədbirlərinin keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrılmış yerlərdə;
4) Hərbi məqsədlər üçün istifadə olunun ərazilərdə və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə;
5) Azadlıqdan məhrum etmə yerlərinin, psixatriya müalijə müəssisələrinin ərazilərində və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə;

IV. Siyasi məzmunlu toplantılar, ziyarətgahlarda, ibadətgahlarda və qəbiristanlınqda keçirilə bilməz;
V. Pikет düzəldənlər 50 nəfərdən çox olmamalı və pikет edilən obyektin girişinə 10 metrdən yaxın məsafədə yerləşməməli, pikет edilən obyektə giriş və çıxış üçün maneələr yaratmamalı və 10 vatdan yüksək olan səs güjləndiriji qurğulardan istifadə etməməlidirlər.
VI. Yığınjaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər bir şəhər və rayonda müvafiq icra hakimiyyəti orqanı xüsusi yerlər ayırmalıdır. Yığınjaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün ayrılmış yerlərin siyahısı yerli mətbuatda dərj edilib və başqa üsullarla əhaliyə çatdırılır. Təşkilatçılar yığınjaq, mitinq və ya nümayiş üçün ayrılmış yerlərin birini seçə bilərlər.
VII. Küçə yürüşünün təşkilatçıları onun marşurutunu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmalıdırlar.
VIII. Toplantı yay vaxtının tətbiqi dövründə saat 8:00dan 19:00 dək ilin digər dövründə saat 9:00 dan 17:00 dək keçirilə bilər. Keçirilən hər bir toplantının vaxtı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır.

«Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Konstitusiya Qanununun 3-jü maddəsinə görə sərbəst toplaşma azadlığı hüququ iğtişaşların qarşısının alınması və ijtimai təhlükəsizliyin qorunması naminə məhdudlaşdırıla bilər və ya ona qadağa qoyula bilər.

Əlbəttə qanunverijiliklə müəyyən olunmuş məhdudiyyətlərin bir çoxu beynəlxalq standartlara javab vermir və ölkənin öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərlə bir araya sığmır. Bununla belə bu müddəaların özünün tətbiqində də bir sıra jiddi qüsurlar vardır ki, bu da sərbəst toplaşma azadlığını məhdudlaşdırır.
Bu istiqamətdə ölkə məhkəmələrinin praktikası da olduqja qüsurludur. Məhkəmələr bir qayda olaraq sərbəst toplaşma azadlığı hüququnun pozulması halı ilə bağlı şikayətlərə baxmaqdan imtina edirlər. Nəzərdə tutulmuş 3 gün müddətində şikayətə baxılması halı qeydə alınmamışdır.
Rayon və ya şəhər məhkəmələri adətən belə şikayətləri qərardad qəbul edərək iddiaçıya qaytarırlar. Məhkəmələrin iddianı qərardadda göstərdikləri «əsas» «*iddiaçının iddia ərizəsində isə mübahisənin düzgün həll edilməsi üçün zəruri olan digər məlumamlar, həmçinin iddiaçının vəsadəmləri də gösmərilməmişdir».*
Belə olan halda qərardaddan apelliyasiya instansiyasına şikayətin verilməsi məqsədəuyğundur.
Ümumiyyətlə isə ölkə daxili hüquqi müdafiə vasitələri sərbəst toplaşma azadlığının təmin olunması tələbini yerinə yetirməyibsə onda beynəlxalq müdafiə mexanizmlərindən istifadə etmək zəruridir.
«Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Konstitusiya Qanununun 3-jü maddəsinə görə sərbəst toplaşma azadlığı hüququ iğtişaşların qarşısının alınması və ijtimai təhlükəsizliyin qorunması naminə məhdudlaşdırıla bilər və ya ona qadağa qoyula bilər.
Digər bütün hallarda tətbiq olunan qadağalar, hətta bu qadağa və məhdudiyyətlər hər hansı digər qanuna və ya normaya istinad edilməklə belə tətbiq olunarsa məhkəməyə şikayət üçün əsas yaradır.

Toplaşma azadlığı pozulduqda beynəlxalq müdafiə mexanizmlərində ismifadə

Dinj toplaşma azadlığı fundamental hüquq olduğu üçün insan hüquqlarına dair beynəlxalq normalar vasitəsi ilə də müdafiə olunur. Azərbaycan Respublikası Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakta, Pakta əlavə olunan Fakultativ Protokola və İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasına tərəfdar çıxmaqla bu azadlığın müdafiəsi üçün beynəlxalq mexanizmlərdə istifadə etməyə şərait yaratmışdır.

Ölkənin 1992-ji ilin avqust ayında tərəfdar çıxdığı ***«Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakm»ın 21-ji maddəsinə görə***
Dinj yığınjaqlar hüququ tanınır. Bu hüquqdan istifadə edilməsinə qanuna müvafiq olaraq qoyulan və demokratik jəmiyyətdə

- dövlət təhlükəsizliyinin, yaxud ijtimai təhlükəsizliyin;

- ijtimai asayişin təmin olunması;
- əhalinin sağlamlıq və mənəviyyatının mühafizəsi;
- yaxud başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyulmur

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasının 11-ji maddəsinə görə

Hər kəsin dinj toplaşmaq azadlığı hüququ… vardır. Bu hüququn həyata keçirilməsinə

- Milli və ijtimai təhlükəsizliyin təmin olunması;
- Asayişin təmin olunması və jinayətin qarşısının alınması;
- Sağlamlığın və mənəviyyatın mühafizəsi;
- Digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi

üçün qanunla nəzərdə tutulmuş və demokratik jəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyula bilməz.

Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin bu hüquqların həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

Paktda və Konvensiyada əks olunmuş dinj toplaşma azadlığının pozulması halında ölkədaxili müdafiə mexanizmləri səmərə vermədikdə Beynəlxalq müdafiə mexanizmlərindən istifadə etmək olar.

Ölkədaxili mexanizmləri dəf etdikdən sonra aşağıdakı beynəlxalq müdafiə mexanizmlərindən istifadə etməklə toplaşma azadlığının pozulması ilə bağlı şikayətlər verib, hüququn təmin olunmasına jəhd etmək olar.

İnsan Hüquqları Komiməsi

Komitəyə məlumatı təqdim etmək üçün onu poçt vasitəsi ilə aşağıdakı ünvana göndərmək olar

The Human Rights Committee
c/o Centre for Human Rights
United Nations Office at Geneva
8-14 avtnue de la Paix
1211 Geneva 10
SWITZERLAND

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə şikayəti təqdim etmək üçün poçt vasitəsi ilə aşağıdakı ünvana göndərilməlidir.

The Registrar
European Court of Human Rights
Council of Europe
F-67075 STRASBOURG CEDEX
France

Hər iki orqana məlumatı və ya şikayəti göndərərkən həm Komitənin, həm də Avropa Məhkəməsinin reqlamentində əks olunan şərtlərə jiddi əməl olunmalıdır.

Toplanmı məşkilamçılarının və işmirakçılarının hüquq və vəzifələri

Toplantı təşkilatçılarının hüquq və vəzifələri Sərbəst toplaşma azadlığı haqqında Qanunun 12-ji maddəsi ilə müəyyən olunur.

Qanunun bu maddəsində göstərilir ki, «…7-ji maddədə göstərilən hallardan başqa, dinj toplantının keçirilməsinə dair hazırlıq işlərinə məhdudiyyətlər qoyula bilməz».

- Azərbayjan Respublikası Konstitusiyasına uyğun olaraq toplantı zamanı təşkilatçıların şifahi və yazılı fikir və söz azadlığı vardır. Bu azadlığın həyata keçirilməsi Azərbayjan Respublikası Konstitusiyasına və Azərbayjan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquq normalarına uyğun məhdudlaşdırıla bilər.
- Toplantının təşkilatçıları tədbirin dinj və qanuni qaydada, yazılı xəbərdarlıqda göstərilmiş və toplantıya qoyulmuş şərtlərə uyğun olaraq keçirilməsini təmin etmək üçün bütün mövjud imkanlardan istifadə etməlidirlər.
- Toplantı təşkilatçılarının onları fərqləndirən açıq-aşkar görünən nişanı olmalıdır.
- Toplantı təşkilatçılarının odlu və ya soyuq silah, habelə insanların həyat və sağlamlıqları üçün təhlükə yarada bilən və ya əmlaka zərər vura bilən daş-kəsək, şüşə və taxta parçaları, dəyənəklər, bədən xəsarəti yetirmək üçün xüsusi düzəldilmiş əşyalar,partlayıjı maddələr və ya pirotexnika məmulatları, güjlü təsir edən, zəhərli, tez alışan və ya alışdırıjı maddələr, radioaktiv materiallar gəzdirməsi qadağandır.
- Qanunun 8-ji maddəsinin IV hissəsində nəzərdə tutulmuş hallarda qadağan olunmuş toplantının təşkilatçısı toplantının qadağan edilməsi barədə onun iştirakçılarını xəbərdar etmək üçün bütün mövjud imkanlardan istifadə etməlidir.
- Qanunun 8-ji maddəsinin V hissəsində nəzərdə tutulmuş hallarda sərənjamla dayandırılmış toplantının təşkilatçısı bu sərənjamın yerinə yetirilməsi üçün bütün mövjud imkanlardan istifadə etməlidir.
- Toplantının təhlükəsizliyini təmin etmək dövlətin vəzifəsidir. Lakin toplantının təşkilatçıları dövlət tərəfindən təmin olunan təhlükəsizlik tədbirləri hüdudlarından çıxan toplantının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə əvəzi ödənilmək şərti ilə əlavə polis qüvvələrinin jəlb olunması barədə mürajiət edə bilərlər.

Toplantı iştirakçılarının hüquq və vəzifələri Sərbəst toplaşma azadlığı haqqında Qanunun 13-jü maddəsi ilə müəyyən olunur.

- Dinj toplantıda iştirak edən hər bir şəxs bu Qanunun 7-ji və 8-ji maddələrinə uyğun qoyulmuş məhdudiyyətlərə və şərtlərə əməl etməlidir.
- Şəxslər toplantıda könüllü iştirak edirlər. Heç kəs toplantıda iştirak etməyə məjbur edilə bilməz. Kimi isə toplantıda iştirak etməyə məjbur edən şəxslər Azərbayjan Respublikasının qanunverjiliyi ilə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.
- Azərbayjan Respublikasının Konstitutisiyasına uyğun olaraq toplantı zamanı iştirakçıların şifahi və yazılı fikir söz azadlığı vardır. Bu azadlığın həyata keçirilməsi Azərbayjan Respublikasının Konstitusiyasına və Azərbayjan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquq normalarına uyğun məhdudlaşdırıla bilər.
- Toplantı zamanı iştirakçılar ijtimai qaydanın qorunmasına köməklik göstərməli və təşkilatçıların, habelə müvafiq ijra hakimiyyəti orqanı nümayəndələrinin qanuni tələblərinə əməl etmək üçün bütün mövjud imkanlardan istifadə etməlidirlər.
- Qanuni toplantının iştirakçısı həmin toplantıda iştirak etməsinə görə sonradan hüquqi məsuliyyətə jəlb edilə bilməz. Yalnız hüquq pozuntusuna yol vermiş qanuni toplantının iştirakçıları hüquqi məsuliyyətə jəlb edilə bilərlər.

- Toplantı iştirakçılarının odlu və soyuq silah, habelə insanların həyat və sağlamlığı üçün təhlükə yarada bilən və ya əmlaka zərər vura bilən daş-kəsək, şüşə və taxta parçaları, dəyənəklər, bədən xəsarəti yetirmək üçün xüsusi düzəldilmiş əşyalar, partlayıcı maddələr və ya pirotexnika məmulatı, güjlü təsir edən, zəhərli, tez alışan və ya aşındırıcı maddələr, radioaktiv materiallar gəzdirməsi qadağandır.
- Toplantının iştirakçıları bu Qanunun 8-ji maddəsinin V hissəsində və 14-jü maddəsinin II hissəsində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının, toplantı təşkilatçılarının və ya təşkilatçıların nümayəndələrinin toplantının dayandırılması haqqında qərarından sonra dağılışmalıdırlar.

TOPLANTILARIN MÜŞAHİDƏSİ

İnsan hüquqları və azadlıqlarına aid olan bütün universal və regional sənədlərdə dinc toplaşma azadlığı və onun sərbəst olaraq həyata keçirilməsi hüququnun təsbit olunmasına baxmayaraq, həmin sənədlərdə və ölkələrin müvafiq Milli qanunvericilik aktlarında bu azadlığın məhdudlaşdırılması və ayrı-ayrı hallarda qadağan olunmasını nəzərdə tutan prosedurlar və qaydalar nəzərdə tutulur. Demokratik dəyərlərin üstün tutulduğu ölkələrdə hakimiyyət bu məhdudiyyət və qadağaları yalnız ***«demokramik jəmiyyəmdə zəruri olan hallarda»*** tətbiq etdiyi halda, demokratik jəmiyyətin və hüququn aliliyinin tam təmin olunmadığı ölkələrdə beynəlxalq və Milli normalarla müəyyən olunan məhdudiyyət və qadağalardan sui-istifadə halları mövjuddur.
Belə olan halda hakimiyyət həmişə məhdudiyyətin və ya qadağanın qanuna uyğun və zərurətin nəticəsində tətbiq etdiyini, əksinə təşkilatçılar isə tətbiq olunan məhdudiyyətin və qadağanın lüzümsuz və qanunsuz olduğunu iddia edirlər.
Belə olan halda əlbəttə tərəflər qanuni prosedurlardan istifadə etməklə həqiqətin kimin tərəfində olduğunu sübut edə bilərlər. Bunun üçün ən effektli vasitə məhkəmələrdir. Bununla belə Azərbaycan Respublikası da daxil olmaqla bir çox ölkələrdə effektiv məhkəmə müdafiəsi hüququndan istifadə etmək tam mümkün deyildir və əksəriyyət hallarda bu jür mübahisələr məhkəmə çəkişməsi predmeti olduqda qərarlar hakimiyyətin xeyrinə çıxarılır. Biz yuxarıda belə halın baş verəjəyi təqdirdə beynəlxalq müdafiə mexanizmlərindən istifadə etməyi tövsiyyə etmişdik. Bununla belə istər ölkədaxili, istərsə də beynəlxalq mexanizmlər nə qədər effektli olsalar da bu mexanizmlərdən istifadə uzun müddət və çox vəsait tələb edir.

Dinc toplaşma azadlığı hüququnun həyata keçirilməsi və onun pozulması halının professional şəkildə qeydə alınması və sübutu üçün daha hansı mexanizmlər vardır? Fikrimizjə bu mexanizm dinc toplantıların müşahidəsidir.

Toplanmıların müşahidəsi nejə həyama keçirilməlidir?

Toplantıların müşahidəsi özlüyündə peşəkarlıq, bilik və bajarıq, həmçinin insan və maliyyə resursları tələb edən bir işdir. Adətən belə müşahidələri insan hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış QHT-lər həyata keçirir. İstənilən toplantını müşahidə edərkən iki hal mövjud ola bilər. Bunlardan biri adi hal, yəni toplantı dinc şəkildə başlayır və davam edir. Digəri isə ekstremal haldır ki, burada adətən toplantılar ya hakimiyyət tərəfindən dağıdılır, ya kontr nümayişlər baş verir, yaxud hər hənsı provokasiya nəticəsində toplantının dinc xarakteri pozulur.
Adi halda, yəni toplantının dinjə şəkildə başladığı, davam etdiyi və başa çatdığı hallarda da belə toplantıların müşəhaidəsini həyata keçirmək zəruridir. Çünki bizim ölkənin və digər ölkələrin praktikasında belə hallar da mövjuddur ki, hətta toplantı hakimiyyət orqanları tərəfindən sanksiyalaşdırıldıqda belə ona süni maneələr yaradılır,

provokasiyalar təşkil olunur və yaxud polis qüvvələri özünü adekvat aparmır. Odur ki bu toplantıların da müşahidəsini aparmaq və pozuntuları qeydə almaq olduqja zəruridir. Digər halda isə, yəni toplantılara qadağa qoyularkən, dağıdılarkən və ya digər ekstremal hallar baş verərkən müşahidə aparmaq mürəkkəbləşir. Odur ki, müşahidəçilər belə hallarda aşağıdakılara xüsusi diqqət yetirməlidir:

- Onlar dərk etməlidir ki, onların müşahidəsi iştirakçıların, təşkilatçıların, asayişi təmin edən qüvvələrin və digər proses iştirakçılarının fəaliyyəti (hərəkətləri) nəticəsində çətinləşə bilər;
- Onlar dərk etməlidirlər ki, onların rolu yalnız bundan ibarətdir ki, hakimiyyət orqanları toplaşma azadlığını məhdudlaşdırır, ya yox. Yəni onlar yalnız pozuntuları və davranışları qeydə almalıdırlar;
- Onlar heç bir halda toplantının davam etməsi, iştirakçıları müqavimətə səsləmək kimi hərəkətlərə yol verməməlidirlər;
- Onlar heç bir halda toplantının iştirakçısına çevrilməməlidirlər və iştirakçılara qoşulmamalıdırlar;
- Müşahidəçilər toplantı təşkilatçıları ilə əvvəljədən əlaqə yaradaraq planlaşdırılan toplantı, onun marşurutu, keçirilmə yeri, iştirakçıların sayı, toplantının davametmə müddəti, məqsədləri və s. barədə məlumatlar əldə etməlidirlər;
- Müşahidə zəmanı elə mövqe seçəməlidirlər ki, prosesləri aşkar müşahidə edə bilsinlər və bu zaman iştirakçılardan ağalabatan məsafədə aralı olsunlar;
- Harada dayandığını və geri çəkilmək planını bilməlidir;
- Həbsə alınanlara və zorakılığa məruz qalanları xüsusi diqqətdə saxlamalıdır;
- Aşkar fərqlənən və onun müşahidəçi olduğunu bildirən nişana malik olmalıdır;
- Müşahidə xəritəsinə (kartına) malik olmalıdır və müşahidə zamanı həmin xəritədə qeydlər aparmalıdır;
- Qeydləri əsasında təfsilatlı və faktlara söykənən hesabat hazırlamalıdır.

Müşahidəçi nəyi bilməlidir

Toplantıları müşahidə edən şəxs toplaşma azadlığına dair Milli qanunverijiliyi və beynəlxalq normaları bilməlidir. Bu ona görə vajibdir ki, müşahidəçi toplantı tərəflərinin hərəkət və hərəkətsizliyini qiymətləndirə bilsin və bu hərəkətin və ya hərəkətsizliyin qanuna və normalara uyğunluğunu müəyyən etsin.

«Sərbəst toplaşma azadlığı haqqında» Qanunun 14-jü maddəsinə görə polis orqanları kütləvi tədbirin keçiriləjəyi yeri tədbirin keçirilməsindən bir gün əvvəl yoxlamaq səlahiyyətinə malikdir. Polis orqanlarının həmçinin

- Qanunda nəzərdə tutulan qaydada qabaqjadan yazılı xəbərdarlıq verilməyən toplantını zəruri hallarda dayandırmaq;
- Yazılı xəbərdarlıqda göstərilən şərtlərə uyğun keçirilməyən toplantını zəruri hallarda dayandırmaq;
- Toplantıya odlu və soyuq silah və insan həyat və sağlamlığına təhlükə yarada biləjək predmetlər gətirən şəxsləri saxlamaq və tədbirin keçirildiyi yerdən uzaqlaşdırmaq və ya belə predmetləri gəzdirməsi barədə əsaslı şübhə doğuran adamlara şəxsi baxış keçirmək hüququ vardır.

«Polis haqqında» qanunun 27-ji maddəsinə görə «insana qarşı fiziki qüvvə, xüsusi vasitələri və odlu silahı yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımı nəticə vermədikdə, hüquq pozmanın ağırlıq dərəjəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq edilməlidir», Daxili qoşunların statusu haqqında» Azərbayjan Respublikasının Qanununun 19, 20 və 21-ji maddələrində də fiziki qüvvənin, xüsusi vasitələrin, silahlı və döyüş texnikasının tətbiqi şərtləri və hüdüdları, fiziki qüvvənin işlədilməsi və xüsusi vasitələrin tətbiqi qaydalarını müəyyən edir.

Toplantı iştirakçılarına qarşı fiziki güjün, xüsusi vasitələrin və odlu silahın tətbiqi adekvat olmalıdır. Əks halda qanuna görə «hərbi qulluqçuların öz səlahiyyətlərini aşaraq fiziki qüvvə, xüsusi vasitələr, silah və ya döyüş texnikası tətbiq etməsi qanunverijilikdə nəzərdə tutulan məsuliyyətə gətirib çıxara bilər»

BMT Baş Məjlisinin 17 dekabr 1979-ju il tarixli qətnaməsi ilə qəbul olunmuş ***Asayişi məmin edən vəzifəli şəxslərin davranış məjəlləsinin 2-ji maddəsində göstərilir ki,*** **«**Hüquq qaydalarının mühafizəsi üzrə vəzifəli şəxslər öz vəzifələrini yerinə yetirərkən insan ləyaqətini müdafiə edir və insan hüquqlarını bütün şəxslərə münasibətdə dəstəkləyir və qoruyur».

3-jü maddəyə görə «Hüquq qaydalarının mühafizəsi üzrə vəzifəli şəxslər yalnız onların vəzifələrini yerinə yetirmələrinin tələb etdiyi dərəjədə, son dərəjə zəruri hallarda güj tətbiq edə bilərlər».3-jü maddə ilə bağlı məjəlləyə daxil edilən şərhin b bəndinə görə «Milli qanunverijilik, bir qayda olaraq, mütənasiblik prinsiplərinə müvafiq surətdə hüquq qaydalarının mühafizəsi üzrə vəzifəli şəxslərin güj işlətməsini məhdudlaşdırır. Həmin maddə yozularkən bunu həmin milli mütənasiblik prinsiplərinə hörmət kimi başa düşmək lazımdır. Bu maddə qətiyyən əldə edilməsi lazım olan məqsədə çatmaq üçün əndazəsiz güj tətbiq etmək səlahiyyəti verilməsi kimi yozulmur».

Birləşmiş Millətlər Təşkilatının 27 avqus-7 sentyabr 1990-jı ildə keçirilmiş 8-ji Konqresində ***Jinayəmin qarşısının alınması və qanunpozujuları ilə davranış qaydalarında*** belə bir prinsip əks olunmuşdur: «Bir halda ki, İnsan Hüquqlarının Ümumi Bəyannaməsində və Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakta görə hər kəs qanuni və dinj yığınjaqlarda iştirak edə bilər, belə olan halda hökumət, idarə və asayişi təmin edən vəzifəli şəxs etiraf etməlidir ki, odlu silah yalnız bu qaydanın 13 və 14-jü prinsiplərinə uyğun olaraq tətbiq oluna bilər».

Həmin qaydaların 13-jü prinsipinə görə «qeyri-qanuni və zorakılıq xarakteri olmayan yığınjaqların dağıdılması zamanı asayişi təmin edən vəzifəli şəxs odlu silahın tətbiqindən qaçmalıdır və ya əgər mümkündürsə onun tətbiqini minimuma endirməlidir»

Qaydaların 14-jü prinsipinə görə «zorakı xarakter daşıyan yığınjaqların dağıdılması zamanı asayişi təmin edən vəzifəli şəxs odlu silahdan o zaman istifadə etməlidir ki, daha az təhlükəli vasitədən istifadə mümkün olmasın və o həddə istifadə etməlidir ki, bu minimal zərurət həddində olsun»

Müşahidə prosesi

Toplanmıya qədər fəaliyyəm

Müşahidəçilərin fəaliyyəti əslində toplantıya hazırlıq dövründə başlayır. Müşahidə qrupu toplantı haqqında informasiya aldıqdan sonra aşağıdakı işləri görməlidir:

- Müşahidə üçün zəruri olan vasitələri və avadanlıqları hazır vəziyyətə gətirməlidir. Toplantının yerini və ya marşurutunu dəqiqləşdirməlidir;
- Toplantı təşkilatçıları ilə kommunikasiya yaratmalı onlardan toplantıya dair zəruri informasiyaları almalıdır;
- Toplantının keçiriləjəyi yerdə və ya nümayişin marşurutu üzrə müşahidə nöqtələrini əvvəljədən müəyyən etməlidir. Xüsusən toplantının dağıdılajağı əvvəljədən bəlli olduqda müşahidəçilər elə yerlər müəyyən etməlidilər ki, həm effektiv müşahidə apara bilsinlər, həmdə proseslərdən (dağıdılma, müqavimət və s.) kənarda qala bilsinlər.

Toplanmı dövründəki fəaliyyəm

- Müşahidəçilər öz müşahidə yerlərinə toplantı başlanmazdan önjə gəlməlidilər. Toplantıda iştirakçılardan ayrı dayanmaq üçün maksimum çalışmaq lazımdır əks halda asayişi təmin edən şəxslər sizin də iştirakçı olduğunuz qənaətinə gələ bilər. Toplantıda video və fotoçəkilişlər aparan zaman çalışmaq lazımdır ki, bu nümayişkəranə şəkildə olmasın, əks halda iştirakçılar və ya asayişi təmin edən şəxslər çəkilişi görüb özlərini qeyri-adekvat apara bilərlər.
- Müşahidəçilər həm toplantı təşkilatçılarının, həm də asayişi təmin edən qüvvələrə kimlərin rəhbərlik etdiyini və onların toplantı zamanı harada dayanmalarını müəyyənləşdirməlidirlər.
- Müşahidəçilər toplantıların dağıdılması zamanı, xüsusən də zorakılıqla müşahidə olunan və qarşıdurma ilə müşayət olunan dağıdılma zamanı ehtiyatlı olmalıdırlar. Mövjud təhlükənin dərəjəsini qiymətləndirməli və lazım gələrsə hadisələrin baş verdiyi yeri tərk etməlidirlər.
- Müşahidəçilər toplantı dağıdıldıqdan sonra baş verən hadisələri də, o jümlədən xəsarət alanlara tibbi yardımların göstərilib-göstərilməməsini, saxlanılanlarla davranış, məhkəmə proseslərini də mühahidə etməyə jəhd göstərməlidirlər.

Toplanmıdan sonrakı fəaliyyəm

Toplantı başa çatdıqdan sonra müşahidəçi təfsilatlı hesabat tərtib etməlidir. Hesabat mümkün qədər dəqiq faktlar əsasında və baş verən hadisələrin hüquqi qiymətləndirilməsi yolu ilə aparılmalıdır.

Hesabatda aşağıdakı istiqamətlərin əks olunması məqsədəuyğundur:

- Toplantının yeri;
- Keçirildiyi tarix və vaxt;
- Təşkilatçı barədə məlumat;
- Toplantının səbəb və məqsədləri;
- Səslənən və yazılı şüarların məzmunu;
- Toplantı iştirakçılarının təqribi sayı;
- Asayişi təmin edən qüvvələrin sayı, texniki təjhizatı, istifadə etdiyi vasitələr;
- Xəsarət alanlar və inzibati qaydada həbs olunanlar.

Yuxarıda qeyd olunduğu kimi müşahidəçilərin bütün müşahidələrini əvvəljədən hazırlanmış ***müşahidə xəriməsində (karmında)*** qeyd etmələri məqsədəuyğundur. Bu vəsaitə əlavədə Polşanın İnsan Hüquqları üzrə Helsinki Fondunun ekspertləri

tərəfindən hazırlanmış ***müşahidə karmı*** təqdim olunur.

MÜVAFİQ QANUNVERİJİLİK AKTLARINDAN ÇIXARIŞLAR

Azərbayjan Respublikası Konsmimusiyası

(çıxarış)

Maddə 48 Sərbəsm moplaşma azadlığı

I. Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

II. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqjadan xəbərdar etməklə dinj, cilahsız yığışmaq, yığınjaqlar, mitinqlər, nümayişlər, küçə uyryşləri keçirmək, pikетlər düzəltmək hüququ vardır.

Azərbayjan Respublikasında insan hüquq və azadlıqlarının həyama keçirilməsinin mənzimlənməsi haqqında

AZƏRBAYJAN RESPUBLİKASININ

KONSTİTUSİYA QANUNU

(Çıxarış)

Maddə 3. Qanun əsasında insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair mələblər

3.1. Azərbayjan Respublikasının Konstitusiyasında və Azərbayjan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlahdırıla bilər.

3.2. İnsan hüquqlarını və azadlıqlarını məhdudlaşdıran qanunda məhdudlaşdırılan hüquq və ya azadlıq, habelə Azərbayjan Respublikası Konstitusiyasının müvafiq maddəsi göstərilməlidir.

3.3. İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər həmin hüquqların və azadlıqların mahiyyətini dəyişməməlidir.

3.4. İnsan hüquqlarına və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbayjan respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütanasib olmalıdır.

3.5. Azərbayjan Respublikası Konstitusiyasının 71-ji maddəsinin III hissəsində göstərilən əsaslarla yanaşı, insan hüquqları və azadlıqları digər insanların hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər.

3.6. Azərbaycan Respublikasının Konstitusiyasında göstərilən digər əsaslarla yanaşı, Konstitusiyanın 28-ji maddəsinin III hissəsində, 32-ji, 33-jü, 49-ju, 50-ji, 51-ji, 58-ji maddələrində göstərilən hüquqlar və azadlıqlar və 47-ji maddəsində göstərilən söz azadlığı dövlət təhlükəsizliyi mənafeoəri üçün, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün, jinayətin qarşısının alınması məqsədi ilə; Konstitusiyanın 32-ji, 33-jü, 49-ju, 50-ji və 58-ji maddələrində göstərilən hüquqlar və azadlıqlar və 47-ji maddəsində göstərilən söz azadlığı həmçinin ijtişaşların qarşısının alınması üçün; Konstitusiyanın 28-ji maddəsinin III hissəsində, 49-ju, 50-ji və 58-ji maddələrində göstərilən hüquqlar və azadlıqlar, 47-ji maddəsində göstərilən söz azadlığı və 48-ji maddəsinin II hissəsində göstərilən hər hansı dinə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ həmçinin ijtimai təhlükəsizliyin qorunması üçün; Konstitusiyanın 28-ji maddəsinin III hissəsində, 32-ji və 33-jü maddələrində göstərilən hüquqlar və azadlıqlar və 48-ji maddəsinin II hissəsində göstərilən hər hansı dinə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ həmçinin ijtimai qaydanın təmin edilməsi üçün, Konstitusiyanın 32-ji və 33-jü maddələrində göstərilən hüquqlar və azadlıqlar həmçinin ölkənin iqtisadi rifahi mənafeləri üçün; Konstitusiyanın 47-ji maddəsində göstərilən söz azadlığı və 50-ji maddəsində göstərilən məlumat azadlığı həmçinin dövlətin ərazi bütövlüyü mənafelərinin təmin edilməsi məqsədi ilə, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün, məxfi qaydada əldə edilmiş məlumatın açıqlanmasının qarşısının alınması və ya məhkəmənin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi üçün; Konstitusiyanın 48-ji maddəsinin II hissəsində göstərilən hər hansı dinə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ sağlamlığın və ya mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması məqsədi ilə məhdudlaşdırıla bilər.

Azərbaycan Respublikassnsn
Seçki Məcəlləsi

(çıxarış)

Maddə 86. Kümləvi mədbirlər yolu ilə seçkiqabağı məşviqamın aparılması şərmləri

86.1. Dövlət orqanları bələdiyyə qurumları qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

86.2. Qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçijilərlə görüşlərinin keçirilməsi üçün yer ayrılması barədə verdikləri ərizələrə müvafiq ijra hakimiyyəti orqanları tərəfindən Azərbayjan respublikası qanunlarına uyğun olaraq baxılır.

86.3. Seçki komissiyalarının sifarişi ilə dövlət və ya bələdiyyə mülkiyyətində olan, seçkiqabağı tədbirlərin keçirilməsi üçün yaralı yer (bina, otaq) qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar blokларının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçki komissiyası ilə razılaşdırdıqları vaxtda seçijilərlə görüşlər üçün istifadəyə mülkiyyətçilər tərəfindən pulsuz verilir. Göstərilən yer (otaq, bina) qeydə alınmış namizədlərdən birinə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna

seçkiqabağı təşviqatın aparılması üçün verilmişsə, mülkiyyətçi qeydə alınmış digər namizədə siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna eyni istifadə şərtləri ilə həmin yeri (otağı, binanı) verməkdən imtina edə bilməz. Seçki komissiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların blokларına, referendum üzrə təşviqat qruplvrına seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şəraiт yaradırlar.
86.4. Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları seçijilərlə görüşlər, yığınjaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün, mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara məxsus bina və otaqları müqavilə əsasında ijarəyə götürmək hüququna malikdirlər.

86.5. Dövlətin müvafiq reyestrlərinə daxil edilmiş, mədəniyyət obyektləri sayılan bina və avadanlıq təşviqat məqsədləri üçün istifadə edilə bilməz.

